

Qədir Tərtərli

# Gəlin silahlara əlvida deyək

### ÖMRÜ GÜL-ÇİÇƏKLƏR BƏZƏYƏYDİ KAŞ

Bahar təbiətin nazlı gəlini,
Gör necə nazlanır, nazlı çağıdı.
Xaliqi bəzəyib öz gözəlini,
Ağ çiçək - üzünün ağ duvağıdı.

Bağlar gül-çiçəkdən tutub yükünü,
Yaşılbaş sonaya bənzəyir çəmən.
Sanki gözləyirmiş elə bu günü -
Çıxıb pişvazına nərgiz, yasəmən.

Görəsən quşların sözlərimi var?
Ötüb salamlayır gələn baharı
Bahar sizdən küsər, dəcəl uşaqlar,
Qovmayın eyvandan qaranquşları.

Qoyun yuva qursun, bala çıxarsın,
Yaza qonaq gəlib uzaq ölkədən.
Gedəndə bizlərdən xoş söz aparsın,
El-oba sevinsin müjdələrindən.

Nəğməkar bülbüldə həvəsə bir bax,
Ürək vəcdə gəlir şaqraq səsindən.
Naləsi gülləri çox yandıracaq,
Özü də yanacaq zəngulələsindən.

Fəsillər şahısan, səndən, ay bahar,
Nə ürək doyubdu, nə göz doyubdu.
Səndə məhəbbətin təravəti var,
Hər çiçək qoynunda bir iz qoyubdu.

Bizim ömrümüz də deyirəm elə,
Ay bahar, ömrünə bənzəyəydi kaş!
Təravət verəydik çəmənə, çölə -
Ömrü gül-çiçəklər bəzəyəydi kaş!

### İNDİ HAMI YAZIR...

**"Artıran söz qədrini, sidq ilə qədrin artırar..."**
***M.Füzuli***

Əl-əl axtarırıq yaxşı əsəri,
Qəlb oxşayan sözə tamarzıyıq biz.
"Göbələk şairlər" artandan bəri
Yaman cılızlaşıb şeirlərimiz.

Torpağı qazırsan "şair" göyərir,
İlahi, nə qədər yazan olarmış.
Əkinçi taxıl yox, şeir becərir,
Bu xalqın nə qədər şairi varmış.

Yetən yazır elə, yazmayan hanı?
Ölkə başdan-başa şairləşibdi.
Şeir kitabları tutub dünyanı,
Gör şeir nə qədər adiləşibdi.

Şeirlə yazılır elmi əsərlər,
Yazmağa nə var ki, qafiyə hazır!
Alimlər bir yana, hər gün sərasər
Dəmirçi də yazır, nalbənd də yazır.

Təcili yardıma getməyib həkim,
Xəstəsi can verib ölən anında.
İlham pərisini de, kim qovar, kim
Şairin təbinin gələn anında?

Qızıl dükanını yarıb oğrular,
Gözətçi "poema" yazırmış demə.
Yığıb aparıblar ordan nə ki, var
Deyiblər yaxşı yaz, səs-küy eləmə.

Beş kitabı çıxıb çayçı Vəlinin,
Ön sözlərin yazan köməkçisidi.
Kasadlıq vaxtına düşüb əlinin,
Deyir ki, hələləik bunlar bəsidi.

İşini, gücünü atıb saatsaz,
O da təzə düşüb şerin izinə.
Qazanda xörəyi yandırıb aşpaz,
Qafiyə axtarır xörək sözünə.

Başı qarışıqdı yol nazirinin,
Beş ildir "yaradır" tər tökə-tökə.
Asfalt iyi verən şeirlərinin
Hökmüylə yolları düzəltdi bəlkə.

Özəl nəşriyyatlar qan eyləyir, qan!
Nə çoxdur həvəskar, yağlı müştəri
Cibi dolulara açıqdı meydan,
Sponsor axtarır xalq şairləri.

Qoy açıq söyləyim, bir təklifim var,
Məni çox incidir bu söz nə vaxtdı:
Vallah, pul gücünə şair olanlar
Sənətə ləkədi, şeirə yamaqdı.

Deyirəm ləkələr, yamaqlar itsə,
Heç nə itirmərik bu məmləkətdə.
Hər kəs öz işinin dalınca getsə,
Saxlayar qiymətin söz də, sənət də!..

### BİZ ÖLÜB GETSƏK DƏ...

Nədir bu savaşlar, nədir qan-qada,
Hər tərəfdə ölüm, hər tərəfdə qan.
Baş aça bilmirsən niyə dünyada,
İnsanın qanına susayır insan?

Anaları ağlar, balanı yetim
Görəndə ürəyim od tutub yanır.
Tək bunamı çatır görən qüdrətim,
İnsanam deməyə dilim utanır.

Axı, yaşamaqçün yaranıb insan,
İnsan şöhrətlənər insan yanında.
Yaddan çıxarmayaq bunu heç zaman,
Canı var, qanı var qarışqanın da.

Gəlin silahlara əlvida deyək,
Yox edək onları, izi qalmasın.
Sevinclə, qürurla döyünsün ürək,
Öldürüb, öldürtmək sözü qalmasın.

Sən də xəcalət çək, silah düzəldən,
Barama qurdundan ibrət al barı.
Sonda o bədbəxtin bilirsənmi sən,
Qurub yaratdığı olur məzarı.

Məhv edək dünyadan dərdi, kədəri,
Ərzi qərq eləyək gülüş səsinə.
Odlu silahlarla qan tökənləri,
Çəkdirək ədalət məhkəməsinə.

Gül gülə qovuşsun, çiçək çiçəyə,
"Nəğmələr bəzəsin Vətən mülkünü".
Biz ölüb getsək də, övladlarımız
Yaşasın o günü, görsün o günü.

### QAYIT TORPAĞINA

Ay torpaqdan küsüb ayrılan insan,
Qayıt torpağına, torpaq sənindi.
Torpağa bağlıdı varlığın sənin,
Qayıt torpağına, torpaq sənindi.

Sən torpaq oğlusan, anandı torpaq,
Halına, gününə yanandı torpaq.
Ona xor baxana yamandı torpaq,
Qayıt torpağına, torpaq sənindi.

İstəsən dünyanı başdan-başa gəz,
Sənə ondan mərhəm tapılmaz əvəz.
Torpağa əyilən, şaha əyilməz,
Qayıt torpağına, torpaq sənindi.

Yaradan gör necə yaradıb onu,
Odur həyatının əvvəli, sonu.
Barı yaxşı düşün, dərk elə bunu,
Qayıt torpağına, torpaq sənindi.

### XALLI KƏPƏNƏK

Bir günlük ömrün var xallı kəpənək,
Qail olmalısan buna da hökmən.
Bəxtinə bu düşüb, neyləmək olar,
Bu paydan nə inci, nə də ki, küs sən.

Yaşayanlar üçün ömür ömürdü,
İstər bir gün olsun, istərsə yüz il.
Yaşa, yaşamağın halalın olsun,
Sürünüb yaşamaq yaşamaq deyil.

Yolunu gözləyir hər gül, hər çiçək,
Gəl qoxla onları, qoxla doyunca.
Uçub çiçəklərdən çiçəklərə qon,
Çəmənlər boyunca, çöllər boyunca.

Qoy qara qarğalar samanlıq eşib
Üç yüz il yaşasın, qarğadır adı.
Qəm yemə, qoy səndən sonra desinlər,
Bir gün yaşasa da, ömür yaşadı.

### GÜLMƏ QOCALARA

Gülmə qocalara, atam balası,
Qocalar ərköyün uşaq kimidi.
Başqadır onların ömür dünyası,
Nuru öləzəyən çıraq kimidi.

Qocaların qəlbi çox kövrək olar,
Övladdan inciyər, nəvədən küsər.
Çox vaxt nə etdiyin bilməz qocalar,
Məqsədin, məramın soruşsan əgər.

Qocalıq - gəncliyin ulu zirvəsi,
Hər kəs bu zirvəyə ucala bilmir.
Qocalıq - tanrının ömür töhfəsi,
Hamı müdrikləşib qocala bilmir.

Qocalar zirvədən baxıb keçmişə,
Ötən günlərini həsrətlə anar.
İnsan keçmişiylə yaşar həmişə,
Görünür, keçmişdə gələcək də var.

Qocaya cavan de, yalan da desən,
Bu yalan, hörmətə mindirər səni.
Əhvalını soruş, qoluna gir sən,
Onda xoş ovqatla dindirər səni.

Sən də qocalarsan, qocala bilsən,
Çalış hörmətini indidən qazan.
Bu gün qocalara arxa çevirsən,
Sabahı bu gündən uduzacaqsan.

Gülmə qocalara, atam balası,
Qocalar ərköyün uşaq kimidi.
Başqadır onların ömür dünyası,
Nuru öləzəyən çıraq kimidi.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100